# Ermənilər hindistanlılar əvəzləyir

## Hayastanda mühacirət sürətlənir



"4rd.am" nəşri yazır ki, Hayastan ərəblərin, assirilərin və başqa xalqların vətəninə çevrilə bilər. Hətta son iki ildə qeydə alınan yüksək iqtisadi artım templəri belə insanların ölkəni tərk etməsinə mane olmur. Ermənilər gedir, xaricilər gəlir. Qeyd edilib ki, ötən il Ermənistana daha çox başqa ölkələrin vətəndaşları gəlib, lakin onlar artıq Rusiya vətəndaşı deyillər. Ukrayna ilə münaqişədən sonra Hayastana köçən ruslar da gedir. Əvəzində digər ölkələrdən, xüsusən də Hindistandan gələnlərin sayı kəskin şəkildə artıb. Qeyd edilir ki, əgər bir-iki il əvvəl Hayastanın küçələrində bir neçə hindistanlıya rast gəlmək olardısa, bu gün onlar hər yerdə görünür. Həm də təkcə hindlilər deyil. Onlar Ermənistana əsasən pul qazanmaq üçün gəlirlər. Nisbətən ucuz işçi qüvvəsi olduğuna görə, tədricən yerli işçi qüvvəsini bazardan sıxışdırırlar. Bu da Hayastan vətəndaşlarının əmək miqrasiyasını stimullaşdırır.

12

# Erməniləri hindistanlılar əvəzləyir

## Hayastanda mühacirət sürətlənir

**Rusiya ilə yaranan siyasi problemlər fonunda sosial-iqtisadi çətinliklər məngənəsində boğulan Hayastanda demoqrafiya böhranı da artaraq daha gərgin mərhələsinə qədəm qoymaqdadır.**

Görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, imkan düşdükcə xaricə köçənlər durmadan artır. Əhalinin artım səviyyəsinin getgedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Hayastanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Yerli media yazır ki, hakimiyyətin vədlərinə baxmayaraq, son illər Hayastandan mühacirət nəinki dayanmır, hətta sürətlənir. Hələ də gedənlərin sayı qayıdanlardan onlarla, hətta minlərlə daha çoxdur. Geri qayıtmayanlar isə mühacir cərgəsinə qatılanlardır.

Bildirilib ki, rəsmi məlumatlara görə, son üç ildə Hayastanı tərk edənlər qayıdanlardan 138 min çoxdur. Bu, cəmi 2,9 milyon nəfər olan Ermənistan əhalisi üçün böyük rəqəmdir. Üç il ərzində ölkədən bu qədər insan gedib və bir daha geri qayıtmayıb. Söhbət sırf Hayastan vətəndaşlarından gedir. Başqa ölkələrin vətəndaşları bura daxil edilmir. Vurğulanır ki, Hayastan ermənilərdən boşaldılır, yer xaricilərlə doldurulur.

"4rd.am" nəşri yazır ki, Hayastan ərəblərin, assirilərin və başqa xalqların vətəninə çevrilə bilər. Hətta son iki ildə qeydə alınan yüksək iqtisadi artım templəri belə insanların ölkəni tərk etməsinə mane olmur. Ermənilər gedir, xaricilər gəlir. Qeyd edilib ki, ötən il Ermənistana daha çox başqa ölkələrin vətəndaşları gəlib, lakin onlar artıq Rusiya vətəndaşı deyillər. Ukrayna ilə münaqişədən sonra Hayastana köçən ruslar da gedir. Əvəzində digər ölkələrdən, xüsusən də Hindistandan gələnlərin sayı kəskin şəkildə artıb. Qeyd edilir ki, əgər bir-iki il əvvəl Hayastanın küçələrində bir neçə hindistanlıya rast gəlmək olardısa, bu gün onlar hər yerdə görünür. Həm də təkcə hindlilər deyil. Onlar Ermənistana əsasən pul qazanmaq üçün gəlirlər. Nisbətən ucuz işçi qüvvəsi olduğuna görə, tədricən yerli işçi qüvvəsini bazardan sıxışdırırlar. Bu da Hayastan vətəndaşlarının əmək miqrasiyasını stimullaşdırır.

Məqalədə qeyd edilir ki, əgər həqiqətən də iqtisadiyyatda və sosial sahədə hər şey hakimiyyətin təsəvvür etməyə çalışdığı qədər yaxşıdırsa, niyə ermənilər ölkədən getməyi seçirlər: "Gələcək yoxdur, amma istədiyiniz qədər problem var. Bir çox hallarda onlar hətta iqtisadi və ya sosial deyil. Daha vacib problemlər mövcuddur. Bunlar insanları vətəni tərk etməyə məcbur edən problemlərdir. Təkcə Ermənistan ətrafındakı çətin təhlükəsizlik vəziyyətini qeyd etmək kifayətdir. Çoxları məhz buna görə ölkəni tərk edir". Belə olan halda məğlub Hayastan ordusu da şəxsi heyət sarıdan ciddi korluq çəkir. Ordu canlı qüvvə ilə təmin edilə bilmir və bu, ilk növbədə özünü silahlı qüvvələrə çağırışda göstərir. Əslində, son üç ildir məlumdur ki, sərhəd xəttində Hayastan hakimiyyəti mülki əhali ilə müqavilə bağlayır və onları döyüş postunda yerləşdirir. Amma artıq bu da kara gəlmir. Reallıq odur ki, bu gün Ermənistanda silah daşıyacaq əsgər və zabit çatışmır.

Bu, bir daha təsdiqləyir ki, Hayastan tam iflasa uğramış bir vəziyyətdədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.1, 12.